*Teymur Kərimli. Əlyazmalar İnstitutunun Türkiyənin elmi və mədəni müəssisələri ilə əlaqələrinin tarixindən//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.9-10.* https://doi.org/10.59849/mbcatr.2023.9

**Orcid: 0009-0000-7321-1878**

**Teymur Kərimli**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*akademik*

# ƏLYAZMALAR İNSTİTUTUNUN TÜRKİYƏNİN ELMİ VƏ MƏDƏNİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏRİNİN TARİXİNDƏN

**Xülasə**

Məruzədə Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkiyə Cümhuriyyətinin elmi və mədəni müəsssisələri ilə əlaqələrinin tarixinə ümumi nəzər salınır. 1991-2023-cü illərdə Əlyazmalar İnstitutunun əməkdaşlarının Türkiyənin uyğun elmi-tədqiqat müəssisələrində təcrübə keçməsi, Türkiyəli mütəxəssislərin Əlyazmalar İnstitutuna səfərləri qarşılıqlı əməkdaşlıq müstəvisində öyrənilir.

**Açar sözlər:** əlyazma, bərpa, arxiv işi, elmi-mədəni əlaqələr

**Teymur Karimli**

# ON THE HISTORY OF RELATIONSHIPS OF THE MANUSCRIPT INSTITUTE WITH SCIENTIFIC AND CULTURAL INSTITUTIONS OF TURKEY

**Abstract**

The report gives an overview of the history of relations between the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences and the scientific and cultural institutions of the Republic of Turkey. In the years 1991-2023, the staff of the Institute of Manuscripts experienced internships in suitable research institutions of Turkey, the visits of Turkish experts to the Institute of Manuscripts are studied at the level of mutual cooperation.

**Key words:** manuscript, restoration, archival work, scientific-cultural relations

Azərbaycan Respublikası ilə bu gün 100 yaşını qeyd etdiyimiz Türkiyə Cümhuriyyəti arasında elmi-mədəni əlaqələrin tarixi yubileyi keçirilən dövlətin özündən də əvvəllərə dayanır. Lakin Azərbaycan Sovet dövlətinin tərkibində olduğu dövrdə Türkiyə ilə əlaqələrin qurulması, qardaş xalqlar arasında mədəni ünsiyyətə cəhd göstərilməsi imperiya maraqlarına zidd olduğu üçün bu münasibətlər zəifləmiş, Türkiyə haqqında danışmaq belə bir növ qadağan zonasında olmuşdur. Ölkəmiz 1991-ci ildə öz siyasi müstəqilliyini bərpa etdikdən sonra Türkiyə Cümhuriyyəti ilə gənc Azərbaycan Respublikası arasında hərtərəfli əlaqələr yaradıldı. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkiyənin elmi-mədəni müəssisələri ilə əlaqələrinin tarixi də məhz bu dövrdən başlamış, intensiv olaraq davam və inkişaf etdirilmişdir. Müəssisəmizin beynəlxalq əlaqələrinin tarixini araşdıran və "Əlyazmaların tədqiq və təbliği sahəsində beynəlxalq əlaqələr" adlı monoqrafiyanın (2022) müəllifi, institutumuzun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Nigar Babaxanovanın qeyd olunan əsərinə əlavə etdiyi xronologiyadan məlum olur ki, müstəqillik illərində Əlyazmalar İnstitutunu ziyarət edən qardaş ölkənin ilk elm qaranquşları Ege Universitetinin professorları olmuşlar. 13 mart 1991-ci il tarixində professor Tuncu Baykere və professor Mühteşem Giray institutumuzda olmuş, burada mühafizə olunan Osmanlı dönəminə dair əlyazmalarla maraqlanmış, Azərbaycanla əlyazmaşünaslıq sahəsində gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmişlər (Babaxanova, 2022: 218-220). Bu görüş gələcək əlaqələr üçün bir vəsilə olmuş, həmin ilin 2 avqust tarixində Türkiyə Cümhuriyyəti Mədəniyyət Nazirliyinin Kitabxanalar üzrə baş direktoru Bəkir Sidqi Şenol, Bəyazit Dövlət Kitabxanasının müdiri Yusif Tavacı Əlyazmalar İnstitutuna gəlmiş, elmi-tədqiqat müəssisəsinin rəhbərliyi ilə görüşmüş, fondlarımızda qorunan əlyazma kolleksiyaları, onların mühafizə şəraiti ilə maraqlanmışlar. Eyni ildə Türk Tarix Qurumunun ölkəmizə səfər edən nümayəndə heyətinin rəhbəri, professor Coşqun Alptəkin, sonrakı illərdə Türkiyə Cümhuriyyəti Dövlət Arxivləri baş direktoru İsmət Binak (1992), Türkiyə Elmi və Bədii Əsər Müəlliflərinin Peşəkar Birliyinin (İLESAM) vitse-prezidenti, professor Rza Ağdəmir (1993), Türkiyə Cümhuriyyəti Dövlət

Arxivləri baş direktoru Mustafa Sərin (2001) Əlyazmalar İnstitutunun qonağı olmuşlar. Türkiyənin uyğun elmi və mədəni müəssisələrinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna marağının artması və bu təşkilatlar arasında əməkdaşlıq üçün əlverişli şəraitin yaranması Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycana rəhbərlik etdiyi dönəmə təsadüf edir. Bu əməkdaşlıq layihələri öz real töhfələrini isə Ümummilli liderin bütün sahələrdə layiqli davamçısı Prezident İlham Əliyevin siyasi rəhbərlik illərinə aiddir. Belə ki, institutumuzun aparıcı alimləri 2008-2011-ci illərdə qardaş Türkiyənin Ankara, İstanbul, Akşehir, Aksaray, Konya, Kayseri, Çanaqqala, Bodrum, Sivas şəhərlərində keçirilən mühüm beynəlxalq konfranslarda iştirak etmiş, Türkiyənin əsas əlyazma mərkəzlərində qorunan Azərbaycan müəlliflərinin və Azərbaycana dair əsərlərin əlyazmaları haqqında ətraflı məlumat əldə etmişlər.

İnstitutun Türkdilli əlyazmaların tədqiqi şöbəsinin sabiq müdiri, filologiya elmləri doktoru, professor Azadə Musabəylinin üç cilddə tərtib etdiyi "Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının toplu kataloqu"nun (2012) mühüm həmçinin məhz Türkiyə kitabxana, muzey və əlyazma arxivlərində qorunan yazılı abidələrin təşkil etməsi də bunun nəticəsidir. A.Musabəylinin kataloqa yazdığı ön sözdən oxuyuruq: "Topqapı Sarayındakı Azərbaycanla bağlı əlyazmalar elmlərin fəlsəfə, tarix, etika, nücum, tibb, baytarlıq, poetika, musiqi nəzəriyyəsi, dilçilik və s. kimi geniş və mürəkkəb sahələrinə aid edilə bilər. Lakin başqa əlyazma xəzinələrində olduğu kimi burada da klassik poeziya nümunələrinin çoxluğu etiraf edilməlidir. Nizami, Əvhədi, Nəsimi, Rövşəni, Hidayət, Füzuli, Gülşəni və başqa şairlərin əlyazmaları Topqapı Sarayı Muzeyinin bəzəyi, dəyərli eksponatıdır" (Musabəyli, 2012: 7-8).

2012-ci ildən başlayaraq Türkiyə Cümhuriyyəti Baş Nazirliyi yanında Türk Əməkdaşlıq və İnkişaf İdarəsi (TİKA) Əlyazmalar İnstitutu ilə sıx əməkdaşlığa başlamışdır. Əlyazmalar İnstitutunun bərpaçı mütəxəssisləri Türkiyənin Konya şəhərində Yazma Əsərlər Müdirliyinin bölgə ofisində təlimlər keçərək Türkiyənin əlyazma abidələrinin yeni bərpa texnologiyalarını mənimsəmişlər. Daha sonra TİKA-nın dəvəti ilə əməkdaşlarımız 2013-cü ildə də eyni müəssisədə təcrübə keçmiş, əlyazmaların bərpası, qorunması üzrə xüsusi kurs bitirərək sertifikata layiq görülmşlər. Alimlərimiz Türkiyənin aparıcı ali təhsil müəssisələrində elmi simpozium, konfrans və konqreslərdə institutumuzu uğurla təmsil etmişlər. 2014-cü ilin 12 aprel tarixində Türkiyə Cümhuriyyəti Baş Nazirliyi yanında Türk Əməkdaşlıq və İnkişaf İdarəsi Nazirliyi Bakı Proqramı koordinatorluğu və AMEA Əlyazmalar İnstitutu arasında "AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun modernləşdirilməsi və Türkiyədəki əlyazma mərkəzləri ilə birbaşa əlaqələrin yaradılması layihəsi"nə dair protokol imzalanmış, bu sənəd əsasında bir sıra mühüm işlər həyata keçirilmişdir. 2015-ci ilin əvvəlində biz TİKA-nın dəvətindən sonra Əlyazmalar İnstitutunun bir qrup əməkdaşı ilə birlikdə İstanbul və Konya şəhərlərində olmuş, Türkiyə Yazma Əsərlər Qurumu Nazirliyi, Süleymaniyyə Kitabxanası və Osmanlı Arxivini ziyarət etmiş, orada görülən işlərlə tanış olmuşuq. Bu bizim əlyazmaşünaslıq və arxivşünaslıq sahəsində qarşılıqlı təcrübə mübadiləmizə yeni istiqamət vermişdir. 2016-cı ildə TİKA-nın Bakı ofisinin koordinatoru Adəm Urfa, Bakı proqram koordinatorunun müavini Mehmet Ali Yetiş Əlyazmalar İnstitutunun qonağı olmuş, əldə olunan nailiyyətlərimizlə maraqlanmış və gələcək perspektivləri müzakirə etmişlər. İnstitutun alimləri Türkiyə Milli Kitabxanası (2017), Süleymaniyyə Kitabxanası (2018), Əhməd Hamdi Tampınar Ədəbiyyat Muzey Kitabxanası (2020), Atatürk Kitabxanasında (2021) elmi ezamiyyətdə olmuş, təkcə əlyazmaların bərpası sahəsində deyil, əlyazma kolleksiyasının təşkilinin elmi prinsipləri, yazılı materialların seçilməsi, qruplaşdırılması, kataloqlaşdırılması, yerləşdirilməsi, daşınması, daimi və səyyar sərgilərinin təşkilinin müasir və təhlükəsiz üsulları, şəxsi fondların arxivləşdirilməsi barədə məlumat əldə etmiş, qədim əlyazmaların sistematik və tematik ekspozisiyası sahəsində təcrübə əldə etmişlər. Bu gün Türkiyə Cümhuriyyətinin 100 illiyini qeyd etdiyimiz ərəfədə "Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr kontekstində" mövzusunda beynəlxalq elmi-nəzəri konfransın keçirilməsi də iki qardaş ölkə arasında mövcud elmi-mədəni əlaqələrin növbəti bariz nümunəsidir. Bu münasibətlər hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlahm Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan cənabları sayəsində hər zamankından daha möhkəm və hərtərəflidir.

**ƏDƏBİYYAT:**

1. Babaxanova, N. (2022). Əlyazmaların tədqiq və təbliği sahəsində beynəlxalq əlaqələr.
2. Musabəyli, A. (2012). Xarici ölkələrdəki Azərbaycan əlyazmalarının toplu kataloqu (3 cilddə), I C.